***Bir il bundan əvvəl imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndə Azərbaycan və Türkiyə arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi perspektivləri diqqət mərkəzində saxlanılaraq, siyasi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər, idman sahələrində imkan və potensiallarının birləşdirilməsi, dərinləşdirilməsi xüsusi yer tutur. Eyni zamanda, bu sırada iqtisadi əməkdaşlığın gücləndirilməsi, müştərək maraq daşıyan regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsi də önəmli vəzifələrdən biridir.***

# Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə iqtisadiyyatının inkişafında da önəmli rol oynayır



Bu gün qardaş ölkə ilə iqtisadi əlaqələrin getdikcə güclənməsinin ifadəsi kimi, deyə bilərik ki, hazırda qonşu ölkədən idxalın artımı qabarıq nəzərə çarpır. Bu gün 4,5 milyard dollarlıq ticarət dövriyyəsi ilə Türkiyə İtaliyadan sonra Azərbaycanın ən böyük ticarət tərəfdaşı olması faktı bunun bariz ifadəsidir.

Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da Azərbaycanın etibarlı tərəfdaşıdır. Hər iki dövlət aqrar tədqiqatlar, təhsil, pambıqçılıq, toxumçuluq, baytarlıq, aqrar sığorta və digər sahələr üzrə sıx və səmərəli əməkdaşlıq edir. Kənd təsərrüfatı məhsulları üzrə qarşılıqlı ticarət əlaqələri getdikcə güclənir və bu sahədə ticarət dövriyyəsinin artırılması üçün birgə səy göstərilir. Azərbaycan Türkiyənin aqrar sahədə müasir texnologiyaların tətbiqinə dair təcrübəsindən yararlanmaqda maraqlıdır.

Bəyannamədə, həmçinin regionun, eləcə də Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut saxələndirilməsini gerçəkləşdirən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolu diqqətə çatdırılır. Eyni zamanda, sənəddə adı çəkilən layihənin hər iki ölkə tərəfindən səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilən səylərin əlaqələndirilmiş şəkildə davam etdiriləcəyi bildirilir. Bununla yanaşı, sözügedən bəyannamədə iki qardaş dövlətin qlobal enerji sektorundakı proseslərə əsaslanaraq, regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə vermək üçün müəyyən tədbirləri reallaşdıracağı ifadə edilir.

Bəyannamədə Cənub Qaz Dəhlizinin gerçəkləşdirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl roluna xüsusi diqqət yetirilməsi təsadüfi deyil. Bununla bağlı bəzi məqamları xatırlatmaq istərdik. Belə ki, son 18 ildə "Əsrin müqaviləsi" sayəsində ölkəmizin imkanları ardıcıl şəkildə genişlənib. Qaz ehtiyatları 1 trilyon kubmetrdən çox olan "Şahdəniz" qaz kontraktı üzrə saziş bağlanılıb. Xəzər dənizini Qara dənizlə birləşdirən yeni bir ixrac marşrutu–Bakı-Supsa neft kəməri tikilib. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası Azərbaycanı dünyada, həm də qaz ölkəsi kimi tanıdıb. Bütün bunlarla bərabər, 2007-ci il iyulun 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından hasil edilən təbii yanacaq Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olub. 2011-ci ildə isə Avropa İttifaqı ilə Azərbaycan arasında Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən strateji enerji əməkdaşlığına dair memorandum imzalanıb və bununla da Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılması istiqamətində tarixi addım atılıb.

Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu nəhəng enerji infrastrukturu layihəsi olan Cənub Qaz Dəhlizi hazırda dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizi ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişdirir. Bu baxımdan adı çəkilən dəhliz dünya neft-qaz sənayesində ən mühüm və iddialı layihələrdən biridir.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir. Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı vardır. Hər iki ölkə lideri mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərir.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 14 iyun.- S.3.